**Günel Hümmətova (Pəniyeva) Saleh**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, fil.ü.f.dok.**
**Mail: gunelpeniyeva@mail.ru**
**Orcid ID:0000-0002-8916-3484**
**Tel.+994559176817**

Azərbaycan Dövlət Pedaqoji Universiteti, “Azərbaycan Ədəbiyyatı” kafedrasının baş müəllimi, fil.ü.f.dok. Ulduz Qəhrəmanova Fərhad qızının rəyi ilə

## SEYRAN SƏXAVƏTİN KİCCİK NƏSRİNDƏ BÖYÜK HƏQİQƏT

**Annotasiya:** Seyran nəsrinin əsas xüsusiyyətlərinə nəzər yetirməklə bir elin həyat tərzinin əsas xüsusiyytlərin üzə çıxatmışdır. Təhlil yazıçının “Alça ağacı” hekayəsi əsasında aparılmışdır. Təhlil zamanı hekayənin mövzu –ideyasına toxunulmuş, hekayədə qoyulmuş mövzuları bir neçə istiqamətd təhlil obyektinə çevirmişdir. Araşdırma hekayənin əsas qəhrəmanları olan Abış və Dadaş üzərində aparılmaqla mövzunun əsas mahiyyətinə nail olunmuşdur.

**Açar sözlər:** Hekayə, nəsr, təhlil, Dadaş, Abış.

## GREAT TRUTH IN THE SMALL PROSE OF SEYRAN SAHAVAT

**Annotation:** By looking at the main features of Seyran's prose, he revealed the main features of a hand's lifestyle. The analysis was based on the writer's story "The Cherry Tree". During the analysis, the theme-idea of the story was touched upon, and the themes set in the story were turned into objects of analysis in several directions. The main essence of the topic was reached by conducting the research on Abish and Dadash, the main heroes of the story.

**Keywords:** Story, prose, analysis, Dadash, Abish.

Məni məndən savayı kimsə anlamayacaq...

**Vaqif Sultanlı**

Dahilər heç vaxt doğru zamanda və doğru məkanda doğulmur... Dahilər həmişə öz mühitinin dəyəri bilinməyən, zamanında layiqli dəyəri verilməyən, qiymətləndirilməyən, mövqeyi doğru anlaşılmayan, mühitin və zamanın yetim övladları olublar...[2.16]

Məhz, Seyran Səxavət də həmin dahilərdəndir və özündən başqa heç kimin anlamadığı və dərk etmədiyi bir yazıçı idi. Zamanın tələbinə uyğun olaraq yazıçı el adəti ilə yeniliyi içində boğub köhnəliyə bürünüb sürünə də bilərdi, bəlkə də sürünməyi qəbul edə bilmədiyi üçün həm yeniliyi, həm də köhnəliyi öz nəsrində cəmləşdirmək həvəsində idi. Aqil Abbasın təbiri ilə desək “Öz üslubu, dəsti-xətti olan yazıçıdır Seyran. Həm də vurub-tutan biri idi, elə indi də elədir. Onun əsərlərindəki kolorit Azərbaycan ədəbiyyatında İsa Məlikzadədə, Sabir Əhmədlidə də var. Seyran Səxavət isə qeyri-adi yazıçıdır. Onun Qədir Rüstəmovdan aldığı müsahibə şedevrdir, qeyri-adidir. Seyranın əsərlərində dil, dialoq tamam fərqlidir, özünə-məxsusdur. “Nekroloq”, “Yəhudi əlifbası”, “Daş evlər” romanları hadisədir”[2.31] Və hər bir nəsri zamanına uyğun hadisədir. Zamanın gəncliyinin faciəsi idi “Qapıların o üzündə qalan dünya”, sevginin və dövrün havasızlığı idi “Bir stəkan hava”, kişiliyin ilinə görə təhlili idi “Yüz ilin kişisi”, hamının bildiyi əslində etiraf edə bilmədiyi zamanın hadisələri idi “Hamı elə bilirdi” hekayəsi. Bəlkə də, Seyranın görüb də deyə bilmədiyi ictimai-siyasi sistemdən irəli gələn həyat həqiqətlərinin nağılvari, ailə-

məişət, sevgi yönümdə ifadəsinin bir acısı idi yazıçı təsvirinin yeni üslubu. Kim bilir, bəlkə də düz görüb əyri anlayan, əyri görüb düz ifşa edən yazıçı inteleksiyasının bəhrəsi idi Seyran Səxavət yaradıcılığı. Seyran Səxavət "... heç vaxt konyukturaya getməyib. Zamanın, zəmanənin necə dəyişməsindən, nəyin aktuallaşmasından asılı olmayaraq hər zaman öz inandığı, bildiyi həqiqəti yazıb"[2.35] və bu həqiqətlə hələ də irəliləyib, istər o həqiqətin sonunda ədəbi-tənqidin söz atəşinə tutulması olsun, istərsə də, hər hansısa bir yazısının dərcinə icazə verilməsin. Yenə də usanmadan və tükənmədən yazıçı ruhu qələmə sarılıb reallıqları öz üslubuna uyğun tərzdə, nağılvari təhkiyə üslubu ilə həyatın qara üzünü göy mürəkəblə ağ kağızlar üzərinə tökmüşdür. Gəncliyin yenilik adı altında milli dəyərlərdən vaz keçməsini, mənəviyyatın getdikcə tozlu asvaltlarda toza bürünüb yox olmasını, əzazilliyin hər bir üzünü əks etditməkdən çəkinməmişdir yazıçı ruhu. Seyran Səxavət hər bir sözündə milliliyin, ənənəviliyin, soykökün və ailə dəyərinin üstünlüyünü, el ağsaqqalı motivinin, Ata kultunun, Allah xofunun, günah hissinin hər bir detalına toxunaraq min bir rəng vermişdir Qarabağ ləhcəsinin hər birinə. "Onun hər bir hekayəsində böyük romanların siqləti və qüdrəti var. Azərbaycan nəsrində onun özünəməxsus dili və üslubu var. Qarabağ danışıq dilini bütün koloriti, codluğu, şirəsi, saflığı və rəngləri ilə Azərbaycan nəsrinə ilk dəfə Seyran Səxavət gətirib. Seyran Səxavət Sözün estetik hakimiyyətində Vicdanın prezidentidir."(3) Yəni bədi nəsrdə Seyran Səxavətin yeni üslubu yeni həyatın var olma mənzərəsini təbiətin doğuşu ilə peysajvari əksi, övladının taleyini əlində yoğurduğu xəmirdən kəsdiyi kündələri yanan təndirdə bişirib el süfrəsinə tədqimi ilə, söz vicdanının dolğun şəkildə təsviri idi. Ya da, yazın elçisi olan alça çiçəyinin martın soyuğundan don aparmasının təsiri idi açılmaqda olan Dadaşın həyat çiçəyinin Abış tərəfindən dondurulması. Bəlkə də, 70-80-ci llər Azərbaycan nəsrində Seyran Səxavət nəsrinin, poeziyasının yerinin fərqliliyi, orjinallığı, xalq dilinə yaxınlığı, Qarabağ ləhçəsinin şirinliyi və həqiqi həyat hadisələrinin bolluğu idi Seyran Səxavət nəsrinin mükəmməlliyi. Bir də yazıçı nəsrinin dil koloritliyi, mövzu rəngarəngliyi, nəsrə gəldiyi dönəmdə həmin zamanın irəli sürdüyü qayda-qanunlara boyun əyməməkliyi kimi xarakteri Seyran Səxavəti ədiblərindən fərqləndirən xüsusiyyətlərindəndir. Elə Seyran Səxavətin nəsirdə və ədəbiyyatda yerini xalq şairi Ramiz Rövşən belə izah eləmişdi:"Seyran Səxavət bizim ədəbi nəsildə zamana yaxa verməyən birinci oğuldur"[2.36]. Bu da Seyran Səxavətin yazıçı çəsarətini qiymətləndirilməsi idi. Yazıçının nəsr nümunələrinə nəzər yetirdikdə, hər bir nümunədə ortaq mövzunun, eyni problemin və bir neçə istiqamətdə cərəyan edən mövzunun şahidi oluruq. Həmçinin hekayə və nəsrinin dilinin sadə və mövzusunun isə maraqlı və həyati götürülməsi oxucu tərəfindən rahat anlaşılmasına gətirib çıxardır. Ərəb ədəbiyyatı tarixində xüsusi yeri olan Cahizin nəsr yazan hər bir müəllifin, yazarın "bütün oxucuların onunla döyüşə girməyə hazırlaşmış bilikli, savadlı düşmən olduqlarını düşünməli"(12:79) olduğunu vurğuladığı nüans Seyran yaradıcılığının başdan-başa əsas qayəsi olduğunu göstərir.

Seyran Səxavətin ailə məişət məzmununda qələmə aldığı "Alça çiçəyi" hekayəsi də yazıçı trəfindən mövzu və məzmun seçmək cəhətdən özənlə yanaşdığı əsəridir. Hekayədə eyni zamanda ailə problemləri və daxili mənəviyyatın əksi, ata-bala, ana-bala, ər-arvad münasibətlərinin təsviri, insan duyğularının Abış simasında deformasiyaya uğraması, zorakılıq, qadın kişi münasibətində zorakı əlaqələrin mövcudluğu özünü tam olaraq göstərməkdədir. Yazıçı Abış surəti ilə bu kimi problemlərin hələ də ailələrdə hökm sürməsini və bunun təsirindən gələcək nəsillərin Solmaz simasında həyatlarının lal, kar olmasına gətirib çıxartdığının ümumi mənzərəsini yaratmışdı. Əslində Solmaz tək özünün deyil də Solmaz kimilərinin prototipidir. Abışların var olduqları müddət ərzində gələcək nəsillərin qorxudan, şiddətdən məhvinin ümumi göstəricisidir. Seyran Səxavət ümumən nəsr nümunələrinin hər birində ailə-məişət problemlərinə toxunmuş, onun timsalında ictimai-siyasi problemləri qabardaraq mövcud cəmiyyət problemlərini dövrün irəli sürdüyü ideologiyasından asılı olmayaraq qabarda bilmişdi. Əsas məğz lal olmuş Azərbaycan, Sosialist rejiminin irəli sürdüyü əlaltı siyasətindən irəli gələn xofun nəticəsindən yaranan gəncliyin qaranlıq gələcəyi və sonda Dəli Dadaş simasında azadlığa gedəcək işığın görünməsi prosesi kimi dəyərləndirsək hekayəyə fərqli yöndən yanaşmış olarıq. Mövzunun, sujet xəttinin və təhkiyə üsulunun, hadisələrin cərəyan etmə manevrinin irəli sürdüyü bədii təsvir hekayənin bu problem çərçivəsindən də təhlilinə ehtiyacın yarandığını vurğulaya bilrik.

Ümumiyyətcə, Seyran Səxavətin "Alça çiçəyi" hekayəsini bir neçə istiqamətdə təhilinin aparılması hekayəni fərqli yöndən araşdırmağa imkan verər:

- istər özündə ehtiva etdiyi milli-mənəvi dəyərlərin əksi olan multikultural dəyərlərin tam şəkildə təsviri yönümdə aparılan araşdırmalar;
- istər ailə-məişət problemi müstəvisində təhlili;
- Fizioloji tolerantlıq prinsipinə məxsus olan fiziki qüsurlu insanlara qarşı hörmət və qayğının əksi, onların hamıdan biri olması və onlarla eyni hüquqa malik olması kimi problemlərin qoyulub tam şəkildə aşılanması;
- Gələcəyin, gəncliyin həyatının köhnəlik tərəfindən məhvi, geriliyin, zorakalığın pislənməsi və "əzazili"yin qarşıya çıxartdığı problemlərin iki ailə simasında əksi;

Bütün bunlardan doğan qaranlığın, saflığın, cəsarətin, milli-mənəviyyatı gözəl olan, həyatdan bixəbər olan Dadşlar tərəfindən işıqlanmasının, aydınlaşmasının Solmaz timsalında bədii portretini yaratmaq yazıçı inteleksiyasının fərqliliyi, fərdiliyi və yazıçı təfəkkürünün özünəməxsusluğundan irəli gəlir. Müasir nəsrdə və Azərbaycan ədəbiyyatında silinməz iz salan Seyran Səxavət yaradıcılığının dahiyanə təsvir metodundan asılıdır. Vaqif Yusifli isə bu dahi yazıçının nəsr nümunələrinin bir neçə özəllikləri ilə seçildiyini vurğulayaraq Seyran nəsrinin altı müxtəlifliyini göstərmişdir: "Birincisi; bu nəsr dil baxımından (istər müəllif təhkiyəsində, istərsə də təsvir olunan obrazların nitqində) çox koloritli bir məzmuna malikdir.

İkincisi; S.Səxavətin təqdim etdiyi obrazlar təbii davranışları, məişət xüsusiyyətləri, ata-baba ənənəsinə sadiqliyi ilə seçilirlər.

Üçüncüsü: S.Səxavət kəndi, orada yaşayan adamların hər birinin fərqli və oxşar xüsusiyyətlərini çox gözəl bilir. Onu kənddə baş verən hər bir hadisə maraqlandırır, özü də daha çox mənəvi tərəfi

Dördüncüsü; Seyran Səxavət adətən öz hekayə, povest və romanlarında cəmiyyət hadisələrinə dar, lokal bir məkandan qiymət verməyə çalışır, sanki hadisələr və insan xarakterləri bir prizmadan işıqlandırılır. Ancaq burada "dar" sözü nisbi məna daşıyır, çünki S.Səxavət dar və xırda məkanı BÖYÜK MƏKANın bir parçası kimi ümumiləşdirə bilir.

Beşincisi; Seyran Səxavət yumoru çox sevir, elə bir nəsr əsəri yoxdur ki, oraya yumor damcılanmasın. Təkcə obrazların danışıq tərzində yox, həm də hərəkətlərində, davranışlarında bu yumor hiss ediləcək dərəcədə güclüdür. Amma yumorun onun nəsrində lağlağıya çevrilmək qorxusu da yox...

Altıncısı; Seyran Səxavətin qəhrəmanlarının heç biri Sovet ədəbiyyatının "müsbət qəhrəmanları"na oxşamır[5]. Yəni, Seyran Səxavət "altmışıncılar" nəslinin və nəsrinin bariz davamçısı və həqiqi həyat hadisələrinin bədii, təbii, real çarçısıdır. Çünki, Seyran nəsrində hadisələr kiçcik məkanda cərəyan edərək böyük zaman hadisələrin əks etdirik. Böyük məkanın problemlərin qısa məkana sığışdıraraq povest təsiri yaradır və əsas problemə bir ailə timsalında yanaşaraq böyük cəmiyyəti narahat edən mənəvi faciəni təsvir edir.

"Bir var əsərdə bir adamın, bir ailənin faciəsini təsvir edəsən - bunun özü mühüm məsələdir. Bir də var ki, bütöv bir epoxanın, xalqın, millətin taleyini, yaşantılarını, əzablarını, faciəsini canlandırasan - bu, böyük ədəbiyyat işidir. Ədəbiyyata şair kimi gəlmiş, yazıçı kimi şöhrətlənmiş, sadə geyimli, ağköynəkli, mərd, təvazökar, türk sifətli Seyran Səxavət bu işin öhdəsindən şərəflə gəlib... Seyran Səxavət vətəndaş yanğılı bir sənətkardır. Cəsurluğu həyatı gözəl bilməsindən, eybəcərliyə dözməməyindən, təslim və fərari olanlara nifrət bəsləməsindən irəli gəlir.".[3]. Məhz, Seyran Səxavətin 70-80- ci illər nəsrinə aid olan "Alça çiçəyi" hekayəsinin əsas mövzusu idi bir ailənin timsalındakı bir kəndin faciəsi. Əsərin əsas sujetində hamının əzazil, zalım bir adam kimi tanıdığı Abış kişi ağacdan alça yığmaq üstündə balaca Dadaşı dəli olmaq dərəcəsinə qədər döyməsi hadisəsi durur. Hekayənin ilk səhifəsindən Abış kişinin əzazil

olduğunu öz həyat yoldaşın döymәkdә görürük. Bunun şahidi olan balaca Dadaşın isə atasının olmamasına şükür etməsi ilə yazıçının Dadaşı fərqli, seçilən, bir növ qorxsa belə nəyin doğru, nəyin yalnış olduğunun dərk etdiyinin şahidi oluruq. Buradan bir növ öz istəklərini etiraf edə biləcək cəsarətə malik olan bir yeniyetmə obrazının ədəbiyyata sıçrayışının cuzi epizodunu görürük. Qoyulan qaydalara boyun əyməmək, qəbullanmamaq, bir növ qorxu olsa da cızıqdan kənara ayaq basmağa nail olan Dadaş obrazınnın şahidi oluruq. Yeddipara kəndində yeganə alça ağacının meyvəsindən yeməyə nə heç kim cəsarət edirdi, nə də bunda haqqları olduqlarını bilirdi. Təkcə bu cəsarət Dadaşa gəlmişdi ki, o da minlər içində tək üsyankar və öz haqqını axtaran idi. Sonu döyülmək və heç kimin onun döyülməyindən xəbəri olmadan  düz on il bu səbəbdən dəli olaraq etdiyi ilk üsyanın cəzasın çəkirdi. Bu hadisəni isə Abış kişidən başqa heç kim bilmirdi. Eyni zamanda yazıçı hekayədə Dadaşın itgin düşməsi, Abış kişinin onu tapıb gətiməsi, müharibə dövrü olduğu üçün həkimin tapılmaması kimi hissələrinin verilməsi müharibənin törətdiyi fəsadları, insanlar arasındakı mənəvi dəyərlərin olması kimi problemlərə də toxunmuşdur.

Dadaşın dəli olduqdan sonra kənd əhalisinin ona qarşı olan münasibətin bir mənalı şəkildə ürəyiyananlıq etmələri, Səriyyə xalaya olan münasibətin olması milli mənəvi dəyərlərin əksinə, qonşu münasibətinə, multukultural dəyərlərin izinə, xəstə, carəsiz bir insanı cəmiyyətdən təcrid etməmək kimi dəyərlərin varlığına, fizioloji tolerantlılığın izinin tam şəkildə ifadəsinə rast gəlinir. Hekayədə rastlanılan milli-mənəvi dəyərlərin, multikultural dəyərlərin izinə ilk öncə folklor yaradıcılığının hər bir nümunsində, janrında rast gəlinir. Atalar sözlərindəki "Dəvəçi il dostluq edənin darvazası gen gərk", "El bir olsa dağı oynadar yerindər", tolerantlığın izini özündə daşıyan və başqa xalqa həsr edilən bayatılarda;

Apardı tatar məni,

Qul edib satar məni.

Yarım vəfalı olsa,

Axtarıb tapar məni.

və s. kimi nümunələri misal olaraq qeyd edə bilərik.  Daha sonra isə qədim dövr yazılı ədəbiyyatın nümunlərində və orta əsrlər bədii yaradıcılıq ümunələrində izlənir. Orta əsr Azərbaycan yazılı ədəbi nümunələrində tolerantlıq və multikultural dəyərlər özünü biruzə verir. "Azərbaycan xalqı hər zaman öz dəyərlərini qiymətləndirmək və uca tutmaqla yanaşı, başqasının milli-mədəni və dini örnəklərinə də daim hörmət və ehtiramla yanaşmış, tarixin bütün dövrlərində qarşılıqlı ünsiyyət, qarşılıqlı faydalanma şəraitində mövcud olmağa üstünlük vermişdir. Yəni bu gün Azərbaycan dövlətinin prioritet siyasi kursu kimi özünü göstərən multikulturalizm əsrlər boyu xalqımızın təfəkküründə iz salmış düşüncə tərzinin bir ifadə formasıdır"[13.s.22] fikri il ədəbiyyatdakı multikultural dəyərlərin ifadəsini qeyd edən tədqiqatçı S.Quliyeva Azərbaycan ədəbiyyatının hər bir misrasında milli-mənəvi dəyərlərin və müxtəlif xalqların milli dəyərlərinə hörmətin olması fikrinin təzahürünə rast gəlinməsi məsələsini vurğulayır. Məhz, bütün bu dediklərimizin ən bariz sübutu isə xalqımızın əsrlərin dərinliklərindən süzülüb gələn ədəbi-bədii irsi, söz xəzinəsi olduğu və ədəbiyyat tariximizin hər səhifəsi ümumbəşəri dəyərlərlə zəngin olan, bütün kainatı bütöv bir vahid kimi dərk edən və onu düşündürən bədii örnəklərlə zəngin olduğunun bədii ifadəsi və sübutudur "Həqiqi tolerantlıq inkişaf etmiş şəxsiyyətin dəyərli keyfiyyətidir. Daha doğrusu, fədakarlıq naminə belə şəxsiyyətlər digərlərinin alçaldılmasını istəmirlər" [10.s.11] ki, Seyran Səxavətin romanında bütün bu xarakteristika öz əksini tapmışdır. " Yeddiaparada heç kəs Dadaşın xətrinə dəyməzdi. Onu "allahın bədbəxt bəndəsi" hesab edirdilər. Dadaş üzüyola idi. Maqazindən qonşuları Minayə müəllimin neftini həmişə o gətirir, otyığanlara kömək edir, bəzən də Koxalı obasının quzusunu otarır, evə qazanc gətirirdi. Quzu otaranda camaat həftədə bir dəfə südü yığıb Səriyyə xalaya verirdi. Toylarda həmişə birinci onun qarnını doydururdular. Yas olanda da həmişə gedib ehsan yeyir, dinməzcə çıxıb gedirdi. Beləliklə, Dəli Dadaş da kəndin xeyrindən-şərindən qalmazdı. Bəzən xurcununu çiynınə götürüb xırmana gəlirdi, onu əliboş yola salmırdılar. Kim kənddə qoyun kəssə idi ən azı baş-ayağını ona verərdi. Minayə müəllim

həmişə ona siqaret alıb gətirirdi..”[1] Hekayədən gətirilmiş nümunənin hər bir ifadəsində yoldaşlıq, birlik, sülhün, mənəvi dəyərlərin təbliği, haqiqi tolerant dəyərlərin qorunub-saxlanmas tarixən Azərbaycan ədəbiyyatının bütün səviyyələınrdə ümumbəşəri və tolerant dəyərləri özündə ehtiva” [11.s.12]edildiyinin və hər bir dövrün nəsr nümunələrində bu və ya digər dərəcədə hökm sürdüyünün şahidi oluruq. Bu da Seyran Səxavət yazadıcılğının kənd həyatından, milli dəyərlərdən, insan hiss-həyəcanından yan keçmədiyinin bariz faktıdır. Nə qədər əzazil sayılsa da, Abış kişinin bir növ haqqa dönməsinin, dinə imana gəlməsinin, günahının qəlbində ifadə edib ibadətdən imdad ummasının dini dünyagörüşün formalaşmasına, Sovet sosialist sisteminin yaydığı ateizim sisteminin hər kənddə, hər bölgədə boğularaq dinin təsiri altında yoxa çıxmasının göstəricisidir. Böyük bir yazıçı yaradıcılığına məxsus olan kiçcik bir hekayədə böyük Azərbaycan mənəviyyatının yenilməz olduğunu cəmləşdir. Sanki, yazıçı zaman etibari ilə solan “alça çiçəyi”nin yerinə solan sistemin olacağına, güclü mənəviyyat qarşısında əzilən “əzazilliyin” dinin xofu qarşısında muma dönərək “özünəqayıdışın” yaşanılacağına əmin idi.“İnsanın daxili aləmində gedən təbəddülatları (dəyişiklikləri – red.), insanı insan edən keyfiyyətləri, cəmiyyətdəki mövqeləşməni, yaxşını pisdən ayırmağı onun əsərlərində görə bilərik. Seyran Səxavəti bizə sevdirən onun əsərlərindəki həyat, insan və sevgisidir” [2.34]. Bu sevgini Seyran Səxavət yaratdığı obrazların həyatı dərk edərək, etdikləri səhfdən nəticə çıxardaraq, həyat səhnəsindəki rollarını analiz edərək, etdikləri zalımlıqları ilə bərabər, qəlblərində ara-sıra yaranan peşmançılıq hissinin təbii verilməsinə nail ola bilmişdir. Bu peşmançılıq hissini biz Abışın öz qızını Dadaşa verməyə məcbur olduğu epizodda görürük. “Abışın qulağında Cavadın dediyi sözlərdən ikisi səsləndi: «Allah əmri». Qalanları ixtisara düşmüşdü. Çünki allahdan qorxurdu. Solmazdan və Dadaşdan isə yox. Abış başdan-ayağa arvadını süzüb dedi:

– Get Solmazı dilə tut, onu ərə verəcəyik.[1]”

Daha doğrusu Abış elə düşünür k, bu Allahın onun günahlarını yuması üçün göndərdiyi bir fürsətdir. Və bu fürsəti “ tolerantlıq dəyərlərini, onların ləyaqətini və səmərəliliyini təsdiqləyən, bəşəriyyət tarixində mövcud olan klassik təlimlərə müraciət” [9.s.5] in özüdür. Abışın bir növ günahını yumaq üçün qızını Dadaşa verməsi prosesində Abışın özünəqayıdışının başlanğıcını müəyyənləşdirir. Toy gecəsindən sonra Abışın lal, ancaq gözəl qızı Solmazın dili açılır. Bu işıqlı sonluq Dadaşın da dəliliyinin sağalaçağına inam yaradır.

Bu hekayənin qəhrəmanı olan, kolxozda qarovul çəkən Abış kişi də həmin dövrün kolxoz işçiləri kimi öz işinə can yandırır. O da heç kəsə güzəştə getmir və o da əzazilliyi ilə kənddə məşhurdur. Lakin, bu əzazillik onun əxlaqi keyfiyyətidir. Əslində isə bütün kənd camaatı da, Abış kişinin özü də bilir ki, o, kolxoz idarəsini yox, idarənin həyətində bitən cır alça ağacını qoruyur, hamı bilir ki, ağacdan bircə turş alca da dərmək mümkün deyil. Çünki bu alçadan kolxoz sədrinin arvadı lavaş bişirəcək.

Hekayədə təsvir edilmiş, hadisələrin əsas inkişaf obyektinə çevrilmiş və hekayənin sərlövhəsinə çıxarılmış “Alça çiçəyi” rəmzi məna kəsb edir. Məhz, alça ağacının turşluğu abışların “turşluğu”, “cırlığı” kimi ifadə olunur. Belə ki, Abışın əzazilliyinin, turşluğunun və cırlığının nəticəsidir ki, atası müharibədən qayıtmayan balaca Dadaş ruhi xəstəliyə tutulmuş, öz doğma balası, qızı Solmaz isə xoflanıb lal olmuşdu. Digər bir problem isə, döyülərək yaddaşını itirən, öz mənliyini unudan, dönüşü olmayan sonsuzluğa düşməyin Dadaşın timsalında ifadəsi idi. Ümumilikdə götürdükdə isə, yaddaşın ədəbiyyatda ifadə tərzi bir neçə aspektdən işıqlandırılmışdır.Yaddaşın itirilməsi həm milli mənəviyyatını, keçmişini kimlərinsə təsiri nəticəsində itirməsinin ifadəsi, ya da yaddaşın itirilməsi milli kimliyin, siyasi durumun kimlər tərəfindənsə unudulmasının əsas təzahürüdür. Yəni, “Yaddaş ədəbi mətndə müxtəlif aspektlərdən işıqlandırıla bilər. Azərbaycan ədəbiyyatına nəzər saldıqda yaddaşın ədəbi mətnlərimizdə əsasən aşağıdakı kimi əks olunduğunu deyə bilərik:

l individual yaddaş elementləri - xatirələr, yazarın həyatında qarşılaşdığı olaylar;

l təhtəlşüurdan gələn elementlər - arxetipik obrazlar, arxetipik süjetlər;

l mədəni yaddaşdan gələn elementlər - Şərq dünyagörüşü və Şərq mədəniyyətindən qaynaqlanan məqamlar.

İndividual yaddaş elementləri ədəbi mətndə birbaşa ifadə olunur. Təhtəlşüurdan gələn elementlər və mədəni yaddaş elementləri isə dolayı yolla - yuxu, arxetipik simvol, obraz, mətnaltı məna kimi özünü göstərir [2].

Əsərdə alça ağacının verilməsi təsadüfü deyil. Beləki, yazıçının məhz bu ağacı seçməsi yazın gəlişinin hiss edilməsi alça ağaclarının çiçəkləməsi ilə özünü göstərməsindən ibarət olduğu üçün təsvir edilmişdir. Müharibədən sonrakı bir dönəmdə kəndlərə gələn yaz fəlsinin, yeni doğuluşun, insanların həyatlarındakı yeniliyin işarəsi idi. Bir az da qışın sərt gözü ilə baxsaq çox nakam ömrü olan alça ağacının çiçəklərinin təsviri isə, bəzən isti havaya aldanıb çiçəkləyən yazın ilk elçisi olan çiçəklərin mart ayının şaxtasının məhv etdiyi kimi, Dadaşın da açılan ilk çiçəyinin mart ayı Abış olur və o Dadadşın çiçəklənməsini dondurur. **Alça çiçəyi kimi həyatının açılan ilk çiçəyi dona düşən Dadaş və** onun ağlını başından alaçaq dərəcədə bu həyatdan məhrum edən Abış obrazının əsas daxili aləmini əks etdirir. Yazıçı həm də **bunu** oxucuların **tam** məmnun qalacağı **bir formada**, onları **duymağa**, düşünməyə, nəticə çıxarmağa **sövq** etmək, **onlarda** təbii, səmimi hisslər **oyatmaq**, hər **bir** əsərin gələcək **taleyini** düşünmək, yazıçı şəxsiyyətini **qorumaq** şərti ilə həyata **keçirir**. **Seyran** Səxavətin hekayələrinin başlıca **mövzusu** insanın mənəvi-əxlaqi kamilləşməsi, ruhən təmizlənməsi, günahlarını və səhvlərini dərindən dərk **edib** durulması, saflaşmasıdır. **Onun** əsərləri **dil**, **üslub**, sənətkarlıq, həm də **poetik prinsip** baxımından orijinallığı ilə **seçilir**. Fərdilik və fərqlilik, özünəməxsusluq **Seyran** Səxavətin yaradıcılığının əsas məziyyətləridir. Yazıçının hekayələrində müraciət **etdiyi mövzular ilk** baxışda sa-də, **adi** görünsə də, dərin bədii məzmunu, daşıdığı məna **yükü**, bədii sambalı, ədəbi **tutumu**, zəngin təsir **gücü**, yüksək sənətkarlığı, səmimi və inandırıcı təqdimatı həmin hekayələri həqiqi sənət nümunəsi səviyyəsinə yüksəltmişdir."[6]

Yazın gözəlliyini, uşaqlığın çılğınlığını, gəncliyin rəngarəngliyini, sevginin səssizliyini duymaqdan məhrub edir, açılan ağacda da çiçklərini dondurur. Məhz, iqtisadi inkişaf baxımından da çox məhsuldar bir meyvə olan ,çox deyil də, 3-4 ilə məhsul verən bir ağacın güdazına gedən Dadaşın həm yaşıdlarından geri qalmağı, HƏM DƏ anası üçün, eli üçün iqtisadi çəhətdən dəstək ola bilməsinin qarşısını elin bir nümayəndəsi tərəfindən ömürlük ALMASINI təsvir edir. Bütün bu olanları bilməməsinin qarşısı alınır. Bu hadisələrin baş verməsini isə bir elin nümayəndəsi tərəfindən həyata keçirildiyini göstərməyə çalışması onun göstəricisidir ki, "eli elin əli ilə vurarlar". Bizi baltalayanlarının sapının özümüzdən olması və xain, cəsarətsizlərin, yaltaqların, elin, gəncliyin, yenilik olan Dadaş cəsarətinin köhnəlik, qayda-qanun, əzalilik adı altında yaltaqlıq, qorxaqlığın cəmləşdiyi insan xislətinin bədii təcəssümü idi. Digər ağaclar məhv olub, quruyub gedir, amma alça ağacı öz etibarı ilə ömürləyir. Bizim izimiz ilə əzizlərimizin qəbirlərinin yanına qədər gedib çıxır. Alça ağacı özü boyda ağappaq işıqdır, amma Dadaşın həyatı üçün qapqaranlıq bir çuxur oldu. Qız gülüşünü ifadə edən ağappaq işıq Dadaşın gözündə, gəncliyində, Səriyyə xalanın həyatında silinməz bir qaranlıq iz açdı. Sonu bəlli olmayan qara bir çuxur. Bəlkə də, o çuxura işığı da Alış kişi aça bilərdi deyə, kənd ağsaqqallarının məsləhəti ilə Abışın qızını Dəli Dadaşa almağı məsləhət edirlər. Bəlkə də, Dadaş döyüləndə dəli olmasaydı belə ona alça ağacından alça yediyinə görə də deyəcəkdilər. Çünki, o doqquz yaşlı bir uşaqda olan cəsarətlə deyil də, o kənddə heç kimdə olmayan cəsarətlə alça yeməyə gedirdi. İgidlik simvolu idi dəli olmamış- Dəli Dadaş. "Yazıçı hekayələrində həyatın, yaşadığı illərin **estetik** şərhini **verir**. "**Yeddi-parada heç** kəsin qəlbinə dəymədiyi", "Allahın bədbəxt bəndəsi **hesab etdiyi**" Dadaşın başına gələn hadisələrdən bəhs edən "**Alça** çiçəyi" də belə hekayə-lərdəndir. Hekayədə hadisə, əhvalat və vəziyyətlərin tamlığı, **hissi-idraki** məqam-ların ardıcıllığı, **bir-birini** izləməsi, tamamlaması və **bütün** bunların yüksək obraz-lılıqla təqdim olunması **oxucuda Seyran** Səxavətin yüksək **nasirlik** səviyyəsi, **dil-üslub kamilliyi**, dərin müşahidə qabiliyyətinin olması ilə bağlı **fikir** formalaşdırır. **Seyran** Səxavətin əsərlərini təhlil edərkən aydın **hiss olunur ki**, yazıçının **möv-qeyi** Mirzə Ələkbər Sabirlə yaxından səsləşir. **Böyük Sabir kimi Seyran** Səxavət də məsələlərə münasibət bildirməkdə sərt və amansızdır."[4,54]

Hekayənin əsas hissələrindən biri də Abış kişinin qızı Solmazın Dadaşın dli olmasından xoflanaraq kar olması və hər iki gəncin yaxın münasibətdə olmaları hissəsidir. Əslində biri dəli, biri də lal olmalarına

rağmən bir-birlərinə olan isti münasibətləri Səriyyə xalanın Dadaş üçün bişirdiyi yağlı kökəni yarıya bölüb yemələri hadisəsindən bəlli olur. Burada eyni zamanda ağlın itirmiş olsa da, eşitmə, danışma qabliyyəti olmasa belə bir Azərbaycanlı kəndlisinin birlik, bölüşmə kimi milli dəyərlərə malik olduğunun böyük göstəricisidir. “Səriyyə xala çörəyi bişirib qurtardı. Dadaş öz kökəsini alıb sevindi.

– Ay Dadaş, nənən gözlərinə qurban olsun, apar bu çörəyin birini ver Abış kişiyə isti-isti yesin.

Dadaş canla-başla razı oldu. Üzünə yumurta sarısı ilə küncüt vurulmuş çörəyi aparıb Abış kişiyə verdi. Kökəsini də Solmazla yarı böldü.

Abış kişinin boğazında bu çörək ilan sümüyü kimi qaldı. İstədi gəlib Səriyyə xalaya hər şeyi açıb danışsın. Ancaq qeyrəti çatmadı...” Çünki, gec olduğunun fərqindəydi. Günahının da cəzasın həm mənən, həm də övladı ilə çəkirdi. Çünki, həyatının Solmazı olan qızının da həyatı gənc yaşlarından solmuşdur. Nə danışa, nə də eşidə bilirdi. Bir faciədən doğan iki “alça çiçəyi”nin solması baş vermişdi. Buna hər qapıda olan bolluq, şirinlik, mehribanlıq, birgəlik rəmzi olan Yedipara kəndinin təkcə bar yeri olan“tut”ağacı da mane ola bilməmişdi. Hər qolu, budağı hər yayda kəsilərək baramaqurdlarına yem olsa da, qınından, qoyulan çərçivədən çıxan Dadaşın həyat çiçəyinin solmasına mane ola bilmədi.

“Yeddipara bağsız-bağatsız yer idi. Həmişə bomboz görünərdi. Hərənin qapısında bir-iki tut ağacı vardı. Çoxunun evinin qarşısında yayın çırhaçır istisində daldalanmaq üçün heç bu da yox idi. Bu boyda kənddə əlli-altmış tut ağacı ya ola, ya da olmaya. Onların da hər yaya qol-budağını kəsib “əziz xələf” barama qurdlarına yedirdilər”.[3.521]. burada ifadə olan barama qurdları və “əziz xələf” ifadəsi sədrə işarə idi. Çünki sədr də barama qurdu kimi bu bomboz çölün yeganə yeyən nümayəndəsi idi. Yeganələrə də qulluq etmək, hər şeyin sədrlərə aid olması fikrini yazıçı alça ağacı timsalında ifadə etmişdir. Alça ağaçının təkliyi, sədrin təkliyinə, barama qurdunun çoxluğu kənd əhalisinə, tut ağacının “sirkələnmək ” kimi ifadəsi isə həmin insanların öz başlarına hördükləri baramadan sirkələnərək çıxmaları və reallıqları görərək, alça ağacının ağappaq işığı ilə yeniliyə işıqlığa çıxmağın ifadəsini verirdi. Bəlkə də, yazıçı tut ağaçı ilə alça ağaçının qarşılaşdırması ilə sədr və kənd əhalisini qarşı-qarşıya qoyurdu. Yeganə ALÇA ağacı-turşluq, açılıq, 50-60 dənə olan TUT-isə şirinlik, xeyirxahlıq rəmzi idi. Həmçinin kəndəki diigər meyvənin tut olmasını çoxluqla, kənd əhalisi ilə əlaqələndirməklə yanaşı, Abış obrazı ilə müqaisə edə bilərik. Abış kişini tut ağacının yarpağına bənzədə bilərik. Belə ki, Abış kişinin də xarakterinin dəyişkənliyi ilə tutun yarpağının rəng dəyişkənlikləri eyni götürüülür. Tutun yarpağının rəngi üst tərəfdən parlaq, tünd yaşıl, alt tərəfdən isə bozumtul-yaşıl rəngdə olması, Abışın da əslində Dadaşgilə yaxşılıq etməsi və içinin isə günahgar olması hissi ilə dolu olması xarakter cəhətdən bənzərliyinə gətirib çıxardır. Alça çiçəyinin işığının isə Solmazın toydan sonrakı danışmağına olan işarə idi. Bir də Dadaşın sonrakı taleyindəki, Solmayan yeganə çiçəyin Solmazın olduğuna nümunə idi.

Ümumilikdə, hekayə janrınında obrazların mənəvi-əxlaqi **portretini yaratmaq**, hadisə və situasiyaları müfəssəl şəkildə, təfərrüatı ilə təsvir etmək yazıçı üçün **povest** və **romana** nisbətən daha ağır və mürəkkəbdir. çünki biz "Hekayə nəsrin **desant** janrı **olduğu** ”nu vurğulayaraq, bu janrda **bir sənətkar üçün intellektdən** , **elm** və **savaddan başqa kamil** və **xüsusi fitri istedad**ın olmasının vacibliyini vurğulaya bilərik. Bununla yanaşı “...hekayədə obrazlı təfəkkür **mühüm rol** oynayır. Seyran Səxavət dərin müşahidə və axtarışlarının, yaradıcılıq təcrübəsinin, **kamil** bədii ümumiləşdirmələrinin, zəngin mütaliəsinin, **elmi** təfəkkürünün, dərin bədii təxəyyülünün, cilalanmış və formalaşmış bədii **dil** və **üslubunun** köməyi ilə **kiçik** hekayə janrına, **povest** və **romanlarda olduğu** qədər bədii həyat materialı yerləşdirə **bilir**. (6)

**Ədəbiyyat siyahısı**

1.Alça çiçəyi –Seyran Səxavətin hekayəsi. 23.mart.2023

https://kulis.az/xeber/edebi-tenqid/alca-ciceyi-colorredseyran-sexavetin-hekayesicolor-15936

2.Qaragözova Elnarə (2021)Seyran Səxavətin hekayələrində yaddaş .29 mart

https://edebiyyatqazeti.az/news/edebi-tenqid/7081-seyran-sexavetin-hekayelerinde-yaddas

2.Seyran Səxavət (2021) (Seyran Əsgər oğlu Xanlarov): Biblioqrafiya / Tərt. ed. X.Abbasova, G.Misirova; elmi red. K.Tahirov; red.E.Nəciyev. – Bakı, 2021. – 176 s.

3. Seyran Səxavət haqqında deyirlər. (2023).. - Bir əsrə sığmayan ömrün 77-ci anı....22. mart.2023

https://moderator.az/az/edebiyyat/614771/seyran-sexavet-haqqinda-deyirler-bir-esre-simayan-mrun-77-ci-ani/

4. Seyran Səxavət. Qızıl teşt .Povestlər və hekayələr /Seyran Səxavət. Bakı: Çaşıoğlu, 1999

5. Vaqif Yusifli (2016) .Mən zamanın içindəyəm..." - Seyran Səxavət-70. 525-ci qəzet.- 2016.- 15 aprel.- S.4.

http://www.anl.az/down/meqale/525/2016/aprel/485416.htm

6 .Zərrabqızı Xəyalə (2016)...**Kiçik** əhvalatlarda **böyük** həqiqətlər.. Şərq.- 2016.- 18 mart.- S.13

http://www.anl.az/down/meqale/sherq/2016/mart/482161.htm

7. Zərrabqızı Xəyalə (2016).Seyran Səxavət yaradıcılığı: millilikdən bəşəriliyə. 07.03.16

https://525.az/news/52969-seyran-sexavet-yaradiciligi-millilikden-beseriliye.

8.Zərrabqızı Xəyalə.Seyran Səxavət dünyası. ədalət.16 fevral 2021.s.6

9. Баева Л.В. Толеранстность: идея, образы, персоналии. Астрахань: Издательский дом «Астарханский университет», 2009, 217 с.

10. Толерантность как атрибут современной жизни: понятие и принципы формирования. Тула: ГОУ ДПО ТО , 2017, 208 с

11.Klassik Azərbaycan ədəbiyyatı ümumbəşəri və tolerant dəyərləri özündə ehtiva edir. Paralel"in Araşdırma Qrupu. Paralel. - 2020.- 15 fevral. - № 31/32. - S. 12.

12. Kazımoğlu Seyran (2005) . Cahizin ədəbi görüşləri. Bakı, Elm. s.203

13. Quliyeva S (2020). Müstəqillik Dövrü Azərbaycan Ədəbiyyatında Multikulturalizmin Bədii İnikası. A v t o r e f e r a t, Bakı – 2020